**Abdurrazzaq ibn Abdul-Muhsin əl-Bədr**

# Nicat tapmaq üçün labüd olan 10 əməl

**Tərcümə edən:**
**Əlixan Musayev**
**Redaktorlar:**
**Mübariz Qarayev**
**Aydın Salehli**

بسم الله الرحمن الرحيم

*Mərhəmətli və Rəhmli Allahın adı ilə!*

# Müqəddimə

Həmd aləmlərin Rəbbinə məxsusdur! Allahın qulu, rəsulu və sevimli dostu Peyğəmbərimiz Muhəmmədə, onun əhli-beytinə, səhabələrinin hamısına və Qiyamət gününədək yaxşı işlər görməkdə onların ardınca gedən möminlərə salavat və salam olsun!

Sonrasına gəlincə:

Həqiqətən, saleh əməllər etməyə müvəffəq olan insan, özünü islah etməyə və günahlardan təmizləməyə, habelə, dünya və axirətdəki şər və təhlükələrdən xilas olmağa çalışır. Bu isə, möminlərin israrla nail olmaq istədikləri əzəmətli mətləb və ali məqsəddir. Bu ali məqsəd onları nicat tapmağın yolu, habelə, uğur qazanmalarına və salamat qalmalarına səbəb olan əməlləri öyrənmək barədə düşünməyə təhrik edir. Bu ali məqsəd Peyğəmbərdən ﷺ sonra İslam ümmətinin ən xeyirli möminlərini – ilk üç xəlifəni رضي الله عنهم belə düşündürmüşdür.

Rəvayət edilir ki, Osman ibn Affan رضي الله عنه demişdir: "Bir gün mən qalalardan birinin kölgəsində oturmuşdum. Elə bu vaxt Ömər رضي الله عنه gəlib yanımdan keçdi və mənə salam verdi. Mən nə onun yanımdan keçdiyini hiss etdim, nə də mənə salam verdiyini. Ömər رضي الله عنه yoluna davam etdi və nəhayət, Əbu Bəkrin رضي الله عنه yanına gəlib dedi: "Çox qəribədir, mən Osmanın yanından keçib ona salam verdim, lakin o, mənim salamımı almadı?!" O vaxt Əbu Bəkrin رضي الله عنه xilafəti dönəmi idi. Əbu Bəkr və Ömər رضي الله عنهما qalxıb mənim yanıma gəldi və hər ikisi mənə salam verdi. Sonra Əbu Bəkr رضي الله عنه dedi: "Qardaşın Ömər gəlib mənə bildirdi ki, sənin yanından keçib salam ve-

rib, sən isə onun salamını almamısan. Səni buna vadar edən nədir?" Mən Ömərə ﷺ dedim: "Vallahi, mən nə sənin yanımdan keçməyini hiss etmişəm, nə də mənə salam verməyini." Əbu Bəkr ﷺ dedi: "Osman doğru deyir. *Deyəsən,* səni onun salamını almaqdan yayındıran bir iş var!" Mən: "Bəli"– dedim. Əbu Bəkr ﷺ soruşdu: "Nədir o?"

Osman ﷺ dedi: "Uca Allah Öz peyğəmbərinin ﷺ dünyasını dəyişdi, biz isə o işdə (dünya və axirətdə) nicat tapmaq barədə ondan soruşmadıq." Əbu Bəkr ﷺ dedi: "Mən bu haqda ondan soruşmuşam." Mən Əbu Bəkrə ﷺ yaxınlaşıb dedim: "Atam-anam sənə qurban. Sən bunu bilməyə daha haqlısan." Əbu Bəkr ﷺ dedi: "Mən: "Ya Rəsulullah, bu işdə nicat tapmağın yolu nədir?"– deyə soruşdum. Rəsulullah ﷺ dedi: **"Kim mənim əmimə ərz etdiyim və onun rədd etdiyi kəlməni qəbul etsə, bu, onun üçün nicat olar."**[1]

Bu ibrətamiz hadisəyə diqqət edən adam başa düşə bilər ki, nicat tapmamaq məsələsi olduqca əndişəli məsələdir. Bu məsələ, sözündə və əməlində düz olan möminləri belə əndişəyə salır. Baxın Osmana ﷺ, nicat tapıb-tapmayacağı xüsusunda əndişə edir. Halbuki, Peyğəmbər ﷺ onun barəsində: **"Osman cənnətlikdir",**[2] digər rəvayətdə də: **"Bu gündən sonra Osmanın etdiyi yanlış əməllər ona zərər yetirməz"**[3]– demişdir.

---

[1] Bu hədisi İmam Əhməd "Musnəd" əsərində (20) "həsən" isnadla rəvayət etmişdir.

[2] Bu hədisi Əbu Davud "Sunən" əsərində (4649) rəvayət etmiş və Albani "ər-Rovd ən-Nədir" kitabında (425) onun "səhih" olduğunu demişdir.

[3] Bu hədisi Tirmizi "Sunən" əsərində (3701) rəvayət etmiş və Albani "əl-Mişkət" kitabında (6073) onun "həsən" olduğunu demişdir.

Həmçinin, rəvayət edilir ki, Abdullah ibn Rəvahə رضي الله عنه evində öz zövcəsinin yanında ikən ağladı. Zövcəsi ondan ağlamağının səbəbini soruşduqda, o dedi: “Allahın: **“Cəhənnəmdə yanmağa daha çox layiq olanları, əlbəttə ki, Biz yaxşı tanıyırıq. İçinizdən hər kəs oraya varid olacaq. *Bu,* Rəbbinin *əzəldən* müəyyən etdiyi qəti bir qərardır”**[1] ayəsi yadıma düşdü. Mən bilmirəm, biz Cəhənnəmdən xilas ola biləcəyik, ya yox?”[2]

Əgər İslam dinini ilk əvvəl qəbul etmiş və Cənnətlə müjdələnmiş o səhabələr dünyada və axirətdə nicat tapmaq üçün labüd olan əməlləri öyrənmək xüsusunda əndişə etmişdilərsə, onda bəs onlardan sonra gələnlərin halı necə olmalıdır?!

Bu, yığcam məzmunlu risalədə, əzəmətli əməllərdən sayılan və insanın nicat tapması üçün labüd olan on əməli zikr etmişəm. Hər bir müsəlmana vacibdir ki, bu əməlləri öyrənməyə, onların tələblərini yerinə yetirməyə, göstərdiyi yola yönəlməyə və bunları bacardığı qədər öz əhli-əyalına və dostlarına öyrətməyə səy göstərsin. Belə etməlidir ki, həm bu dünyada, həm də Qiyamət günü nicat tapıb uğur qazansın və Nəim cənnətlərində əbədi səadətə qovuşsun. İnsanı nicat tapmağa çağırmaq, ona doğru yol göstərmək və nicat tapması üçün labüd olan əməlləri xatırlatmaq, Peyğəmbərin ﷺ sünnəsi və əvvəlki əməlisalehlərin tutduğu yoldur. Bu xüsusda Quranda belə xəbər verilir:

﴿وَيَٰقَوۡمِ مَا لِيٓ أَدۡعُوكُمۡ إِلَى ٱلنَّجَوٰةِ وَتَدۡعُونَنِيٓ إِلَى ٱلنَّارِ﴾

**“Ey qövmüm! Necə olur ki, mən sizi nicat tapmağa çağırdığım halda, siz məni Cəhənnəm oduna çağırırsınız?!”[3]**

İbrətamiz bir şeir parçasında belə deyilir:

---

[1] Məryəm surəsi, 71-72.

[2] Bu rəvayət Hakim “əl-Mustədrək” əsərində (4/631) rəvayət etmişdir.

[3] Ğafir surəsi, 41.

Sənə nə olub ki, dininə ləkə yaxmağa razısan,
Libasını isə il boyu yuyub təmiz saxlayırsan.
Nicat yolunu tutmadan, nicat tapmaq istəyirsən,
Gəminin quruda getmədiyini isə yaxşı bilirsən.[1]

İbn əl-Qeyyim ﷺ demişdir: "Şübhəsiz ki, Allah insana nicat yolunu göstərib, bu yolun qapılarını onun üzünə açıb, səadətə qovuşmağın yolları barədə ona xəbər verib, nicat tapmanın səbəblərini ona öyrədib, Ona asi olub günah qazanmaqdan çəkindirib və asilik edən kimsənin bədbəxt olacağına və cəzalandırılacağına dair həm onun özünü, həm də qeyrisini şahid edib."[2]

Allahın qulu və rəsulu – peyğəmbərimiz Muhəmmədə, onun əhli-beytinə və cəmi səhabələrinə Allahın salavatı və salamı olsun!

---

[1] Beyhəqinin "Şuəb əl-İman" əsəri, 2/329.
[2] "Uddətus-Sabirin", səh: 284.

## Birinci əməl

## Allahın tək İlah olduğunu qəbul etmək və dini ixlasla Ona yönəltmək

Qiyamət günü nicat tapmaq üçün səbəb olan əməllərin ən əzəmətlisi: Allahın tək İlah olduğunu qəbul etmək və dini ixlasla Ona yönəltməkdir. Bu əməlsiz insanın nicat tapması mükün deyil. Əvvəldə zikr edilən olduqca ibrətamiz hadisədəki Peyğəmbərin ﷺ sözü buna dəlildir: **“Kim mənim, əmimə ərz etdiyim və onun rədd etdiyi kəlməni qəbul etsə, bu, onun üçün nicat olar.”**[1] Bu hədisdə “kəlmə” deyildikdə, tövhid kəlməsi – “lə ilahə illəllah” qəsd edilir.

Burada insanın yalnız bu kəlməni tələffüz etməsi qəsd edilmir. Bu kəlməni dili ilə təsdiqləyən kimsə onun dəlalət etdiyi mənanı da qəbul etməli, yəni dini ixlasla Allaha yönəltməli və yalnız Ona ibadət etməlidir.

Allah məxluqatı məhz tövhid (Allahın tək ilah olduğunu qəbul etmək) və bu kəlmənin tələblərini yerinə yetirmək üçün xəlq etmişdir. Bu xüsusda, uca Allah belə buyurur:

﴿وَمَا خَلَقْتُ ٱلْجِنَّ وَٱلْإِنسَ إِلَّا لِيَعْبُدُونِ﴾

**“Mən cinləri və insanları yalnız Mənə ibadət etmək üçün yaratdım.”**[2]

O, həmçinin buyurur:

﴿وَقَضَىٰ رَبُّكَ أَلَّا تَعْبُدُوٓاْ إِلَّآ إِيَّاهُ﴾

---

[1] Bu hədisi İmam Əhməd “Musnəd” əsərində (20) “həsən” isnadla rəvayət etmişdir.

[2] əz-Zariyat surəsi, 56.

**“Rəbbin yalnız Ona ibadət etməyi buyurmuşdur.”**[1]

O, həmçinin buyurur:

﴿وَمَآ أُمِرُوٓاْ إِلَّا لِيَعۡبُدُواْ ٱللَّهَ مُخۡلِصِينَ لَهُ ٱلدِّينَ حُنَفَآءَ﴾

**“Halbuki onlara, dini məhz Allaha məxsus edərək, hənliflər kimi ibadət etmək əmr olunmuşdu.”**[2]

Qiyamət günü nicat tapmaq və uğur qazanmaq üçün əsas səbəb Allahın tək ilah olduğunu təsdiqləmək və qəbul etməkdir. Tövhid sayəsində iki qism insanlar nicat əldə edir:

Birincisi: Cəhənnəmə daxil olmaqdan qurtulanlardır. Əgər insan tövhid kəlməsinin tələblərini kamil şəkildə yerinə yetirərsə, əsla Cəhənnəmə daxil olmaz, əksinə, o, haqq-hesaba çəkilmədən və əzaba düçar olmadan birbaşa Cənnətə daxil olar.

İkincisi: Cəhənnəmdə əbədi olaraq qalmaqdan xilas olanlardır. Bu da, tövhid kəlməsinin tələblərini kamil şəkildə yerinə yetirməyib onu tamamlamayan, hətta imanını və tövhidini zəiflədən bir çox asiliklər və böyük günahlar edən kimsəyə aiddir. Beləsi, etdiyi günahlara görə Cəhənnəmə giriftar olmağa layiqdir. Lakin tövhid onu əbədi olaraq Cəhənnəmdə qalmaqdan xilas edər və axırda o, Cənnətə daxil olar.

Qaldı ki, Qiyamət günü tövhidsiz gələcək kimisəyə, onun nicat tapması, rəhmətə və məğfirətə nail olması əsla mümkün deyil. Uca Allah Öz rəsulu İsanın ﵇ dili ilə belə buyurur:

﴿إِنَّهُۥ مَن يُشۡرِكۡ بِٱللَّهِ فَقَدۡ حَرَّمَ ٱللَّهُ عَلَيۡهِ ٱلۡجَنَّةَ وَمَأۡوَىٰهُ ٱلنَّارُ﴾

**“Kim Allaha şərik qoşarsa, heç şübhəsiz, Allah Cənnəti ona haram edər. Onun gedəcəyi yer atəşdir.”**[3]

---

[1] əl-İsra surəsi, 23 .

[2] əl-Bəyyinə surəsi, 5.

[3] əl-Maidə surəsi, 72.

Uca Allah həmçinin buyurur:

﴿وَٱلَّذِينَ كَفَرُواْ لَهُمۡ نَارُ جَهَنَّمَ لَا يُقۡضَىٰ عَلَيۡهِمۡ فَيَمُوتُواْ وَلَا يُخَفَّفُ عَنۡهُم مِّنۡ
عَذَابِهَاۚ كَذَٰلِكَ نَجۡزِي كُلَّ كَفُورٖ ﴿٣٦﴾ وَهُمۡ يَصۡطَرِخُونَ فِيهَا رَبَّنَآ أَخۡرِجۡنَا نَعۡمَلۡ
صَٰلِحًا غَيۡرَ ٱلَّذِي كُنَّا نَعۡمَلُۚ أَوَلَمۡ نُعَمِّرۡكُم مَّا يَتَذَكَّرُ فِيهِ مَن تَذَكَّرَ وَجَآءَكُمُ
ٱلنَّذِيرُۖ فَذُوقُواْ فَمَا لِلظَّٰلِمِينَ مِن نَّصِيرٍ﴾

**"Kafirləri isə Cəhənnəm odu gözləyir. Orada nə öldürülməzlər ki, ölüb canları qurtarsın, nə də bu odun əzabı *onlar üçün* yüngülləşdirilər. Biz hər bir kafiri belə cəzalandırırıq. Onlar orada fəryad qoparıb yalvaracaqlar: "Ey Rəbbimiz! Bizi *buradan* çıxart ki, *əvvəllər* etdiyimiz əməlləri deyil, yaxşı əməllər edək." *Onlara deyiləcək:* "Məgər, orada sizə düşünəcək kimsənin düşünə biləcəyi qədər uzun ömür vermədikmi?! Sizə qorxudub xəbərdar edən *Peyğəmbər* də gəlmişdi. Elə isə, dadın *əzabı!* Zalımlara kömək edən olmaz."**[1]

Uca Allah bu üç qism insanı – Cəhənnəmə daxil olmaqdan qurtulan, Cəhənnəmdə əbədi olaraq qalmaqdan xilas olan və bir də əsla nicat tapmayan kimsələri ardıcıl olaraq zikr edib buyurur:

﴿ثُمَّ أَوۡرَثۡنَا ٱلۡكِتَٰبَ ٱلَّذِينَ ٱصۡطَفَيۡنَا مِنۡ عِبَادِنَاۖ فَمِنۡهُمۡ ظَالِمٞ لِّنَفۡسِهِۦ وَمِنۡهُم
مُّقۡتَصِدٞ وَمِنۡهُمۡ سَابِقُۢ بِٱلۡخَيۡرَٰتِ بِإِذۡنِ ٱللَّهِۚ ذَٰلِكَ هُوَ ٱلۡفَضۡلُ ٱلۡكَبِيرُ ﴿٣٢﴾
جَنَّٰتُ عَدۡنٖ يَدۡخُلُونَهَا يُحَلَّوۡنَ فِيهَا مِنۡ أَسَاوِرَ مِن ذَهَبٖ وَلُؤۡلُؤٗاۖ وَلِبَاسُهُمۡ فِيهَا حَرِيرٞ
﴿٣٣﴾ وَقَالُواْ ٱلۡحَمۡدُ لِلَّهِ ٱلَّذِيٓ أَذۡهَبَ عَنَّا ٱلۡحَزَنَۖ إِنَّ رَبَّنَا لَغَفُورٞ شَكُورٌ ﴿٣٤﴾ ٱلَّذِيٓ

[1] Fatir surəsi, 36-37.

أَحَلَّنَا دَارَ ٱلْمُقَامَةِ مِن فَضْلِهِۦ لَا يَمَسُّنَا فِيهَا نَصَبٌ وَلَا يَمَسُّنَا فِيهَا لُغُوبٌ ﴿٣٥﴾ وَٱلَّذِينَ
كَفَرُوا۟ لَهُمْ نَارُ جَهَنَّمَ لَا يُقْضَىٰ عَلَيْهِمْ فَيَمُوتُوا۟ وَلَا يُخَفَّفُ عَنْهُم مِّنْ عَذَابِهَا ۚ كَذَٰلِكَ
نَجْزِى كُلَّ كَفُورٍ ﴿٣٦﴾ وَهُمْ يَصْطَرِخُونَ فِيهَا رَبَّنَآ أَخْرِجْنَا نَعْمَلْ صَٰلِحًا غَيْرَ ٱلَّذِى
كُنَّا نَعْمَلُ ۚ أَوَلَمْ نُعَمِّرْكُم مَّا يَتَذَكَّرُ فِيهِ مَن تَذَكَّرَ وَجَآءَكُمُ ٱلنَّذِيرُ ۖ فَذُوقُوا۟ فَمَا
لِلظَّٰلِمِينَ مِن نَّصِيرٍ

**"Sonra, Kitabı qullarımız içərisindən seçdiklərimizə miras etdik. Onlardan kimisi özünə zülm edər, kimisi orta yol tutar, kimisi də Allahın izni ilə yaxşı işlərdə öndə gedər. Böyük lütf də budur"** – ayəsindən **"Kafirləri isə Cəhənnəm odu gözləyir. Orada nə öldürülməzlər ki, ölüb canları qurtarsın, nə də bu odun əzabı** *onlar üçün* **yüngülləşdirilər. Biz hər bir kafiri belə cəzalandırırıq."** ayəsinə qədər.[1]

Birinci qism, ayənin bu cümləsində zikr edilir: **"Onlardan kimisi orta yol tutar, kimisi də Allahın izni ilə yaxşı işlərdə öndə gedər."** Bunlar Cəhənnəmə daxil olmaqdan qurtulan, haqq-hesaba çəkilmədən və əzaba düçar olmadan birbaşa Cənnətə daxil olan kimsələrdir.

Orta yol tutan kimsə ilə yaxşı işlərdə öndə gedən kimsə arasındakı fərq budur ki, orta yol tutan kimsə: vacib əməlləri yerinə yetirən və haram işləri tərk edən kimsədir. Yaxşı işlərdə öndə gedən kimsə isə vacib əməlləri yerinə yetirib, haram işləri tərk etməkdən əlavə, nafilələri və müstəhəbləri də yerinə yetirir.

İkinci qism, ayənin bu cümləsində zikr edilir: **"Onlardan kimisi özünə zülm edər."** Belələri öz günahlarına görə Cəhənnəmə

---

[1] Fatir surəsi, 32-36.

daxil olmuş olsalar belə, Cəhənnəmdə əbədi olaraq qalmaqdan xilas olanlardır.

Özünə zülm edən adam o kəsdir ki, küfrdən aşağı dərəcədə olan asilikləri və günahları etməklə özünə zülm edir. Beləsi öz cəzasını çəkmək üçün Cəhənnəm oduna daxil olmağa layiqdir. Lakin o, Cəhənnəmə daxil olsa belə, orada əbədi olaraq qalmayacaq. Əksinə, Allahın lütfü sayəsində Allahın tək ilah olduğunu qəbul etdiyinə və dini ixlasla Allaha yönəltdiyinə görə nicat tapacaq.

Üçüncü qism isə ayənin bu cümləsində zikr edilir: **"Kafirləri isə Cəhənnəm odu gözləyir. Orada nə öldürülməzlər ki, ölüb canları qurtarsın, nə də bu odun əzabı** ***onlar üçün*** **yüngülləşdirilər. Biz hər bir kafiri belə cəzalandırırıq."**

Bələlərinin Qiyamət günü nicat tapması mümkün deyil. Çünki onlar Allahın tək ilah olduğunu qəbul etməmişlər. Əksinə, tövhidə xələl gətirən şirk və küfr etmişlər. Rəvayət edilir ki,[1] Abdullah ibn Məsud ﷺ demişdir: **"İman gətirib imanlarına zülm qatmayanlar əmin-amanlıqdadırlar."[2]** ayəsi nazil olduqda, bu ayə Peyğəmbərin ﷺ səhabələrinə ağır gəldi və onlar dedilər: "*Ya Rəsulullah!* Hansı birimiz *özünə* zülm etmir ki?" Peyğəmbər ﷺ buyurdu: **"Bu, sizin zənn etdiyiniz kimi deyil. Bu, Loğmanın öz oğluna dediyi kimidir: "Oğlum!** ***Allaha*** **şərik qoşma. Həqiqətən də, Allaha şərik qoşmaq böyük zülmdür!"[3]**

Peyğəmbər ﷺ o ayədə zikr edilən "zülm" kəlməsinin şirk olduğunu izah edir. Bu da, o deməkdir ki, şirk etməyən kimsə əbədi olaraq Cəhənnəmdə qalmaqdan xilas olacaq.

---

[1] Bu hədisi Muslim öz "Səhih"ində (124) rəvayət etmişdir.

[2] əl-Ənam surəsi, 82.

[3] Loğman surəsi, 13.

Şeyxulislam İbn Teymiyyə demişdir: "Bu ayədən dolayı sıxıntıya düşmüş səhabələr elə zənn etmişdilər ki, burada qeyd edilən zülm, insanın özünə etdiyi zülmdür və buna görə də, yalnız özünə zülm etməyən kimsələr əmin-amanlıqda olub doğru yola yönələ bilərlər. Peyğəmbər ﷺ isə onlara izah edib bildirmişdir ki, Allahın kitabında zikr edilən şirk zülm sayılır. Odur ki, yalnız imanlarına bu zülmü (yəni şirki) qatmayan kimsələr əmin-amanlıqda olub doğru yola yönələ bilərlər. Demək, kim imanına zülm qatmasa, əmin-amanlıqda olub doğru yola yönələr. Uca Allahın: "**Sonra, Kitabı qullarımız içərisindən seçdiklərimizə miras etdik. Onlardan kimisi özünə zülm edər.**"[1] ayəsində zikr edilən seçilmiş insanlar kimi. Bu, o deməkdir ki, insanlardan özünə zülm edən kəs tövbə etməyəcəyi təqdirdə cəzalandırılacaqdır. Əksinə, ayədə deyilir ki: **"Zərrə qədər pislik edən də *əvəzini* alacaqdır."**[2]

Əbu Bəkr رضي الله عنه Peyğəmbərdən ﷺ bu haqda: "Ya Rəsulullah, hansı birimiz pislik etmir ki?"– deyə soruşmuş, Peyğəmbər ﷺ ona belə cavab vermişdir: **"Ey Əbu Bəkr, məgər, sən əziyyət çəkmirsən? Məgər, sən kədərlənmirsən? Məgər, sən sıxıntıya məruz qalmırsan? Bu, etdiyiniz pisliyin cəzasıdır."**[3]

Burada Peyğəmbər ﷺ bildirir ki, tövbə etmiş mömin Cənnətə daxil olsa da, etdiyi pisliklərə görə dünyada müsibətlərə məruz qalmaqla cəzalandırıla bilər... Kim zülmün hər üç növündən qurtulsa, tam şəkildə əmin-amanlıqda olub doğru yola yönələr. Kim

---

[1] Fatir surəsi, 32.

[2] əz-Zəlzələ surəsi, 8.

[3] Bu hədisi İmam Əhməd "Musnəd" əsərində (71) rəvayət etmişdir. Hədisin əsli Tirmizinin "Cami ət-Tirmizi" əsərində (3039) nəql edilib. Albani, İbn Teymiyyənin "əl-İman" kitabının təhqiqində (67) bu hədisin "səhih" olduğunu demişdir.

özünə (yuxarıda zikr edildiyi kimi) zülm etməkdən qurtula bilməsə, ümumən əmin-amanlıqda olub doğru yola yönələr. Yəni digər ayədə vəd edildiyi kimi, cənnətlik olacaq. Belə ki Allah onu düz yola yönəldib və bu yolun sonu Cənnətdir. Lakin o, imanına zülm qarışdırdığı üçün, onun əmin-amanlıqda olub doğru yola yönəlməsi də naqis olacaq."[1]

[1] əl-İman, səh: 66-67.

# İkinci əməl

# Peyğəmbərin ﷺ sünnəsinə tabe olmaq

Peyğəmbərin ﷺ sünnəsini və onun mübarək yolunu araşdırıb öyrənmək və bu öyrəndiklərimizə əməl etməklə sünnəyə xidmət etmək, Qiyamət günü nicat tapmağa səbəb olan əzəmətli əməllərdəndir. Odur ki, imam Malik ibn Ənəs رحمه الله demişdir: "Kim nicat tapmaq istəyirsə, qoy Allahın kitabına və Peyğəmbərin ﷺ sünnəsinə tabe olsun."[1] O, həmçinin demişdir: "Sünnə, Nuhun عليه السلام gəmisidir. Kim o gəmiyə minərsə, nicat tapar; kim onu tərk edərsə, batar."[2]

İbn əl-Qeyyim رحمه الله demişdir: "Dünyanın misalı, dənizin misalı kimidir. Bütün yaradılanlar bu dənizi keçməlidirlər ki, gedib o biri sahildəki yurdlarına, vətənlərinə və məskənlərinə çatsınlar. Bu dənizi isə yalnız nicat gəmisi ilə keçmək olar. Elə buna görə də uca Allah öz peyğəmbərlərini عليهم السلام göndərmişdir ki, ümmətlərə nicat gəmilərini düzəltməyin yolunu öyrətsinlər, habelə, onlara bu gəmiləri idarə etməyi və onlara minməyi əmr etsinlər. Yəni Allaha və Onun peyğəmbərlərinə عليهم السلام itaət etsinlər, yalnız Ona ibadət etsinlər, etdikləri əməlləri ixlasla Onun rizasını qazanmaq üçün yerinə yetirsinlər, axirətdə nicat tapmaq üçün çalışsınlar, bunu təmənna etsinlər və buna nail olmaq üçün əzmlə səy göstərsinlər. Xilas olmağa müvəffəq olan kimsələr o dənizi yeriyərək, yaxud üzərək keçməyin mümkün olmadığını başa düşdüklərinə görə, qalxıb gəmiyə mindilər və gəmi olmadan dənizə girməkdən vaz keçdilər. Axmaqlar isə gəmi düzəltmək, onu idarə etmək və

---

[1] Əbu İsmail əl-Hərəvi, "Zəmul-Həva və Əhlihi", 4/118.

[2] Xətib əl-Bağdadi, "Tarix", 8/308.

ona minmək istəmədilər və dedilər: "Dənizi yeriyərək keçərik. Əgər bunu edə bilməsək, onda onu üzə-üzə keçərik." Dünya əhlinin çoxu bu cür insanlardır. Onlar dənizi yeriyərək keçmək istədilər, lakin sonunda aciz qalıb üzməyə başladılar və nəhayət, suya qərq oldular. Gəmiyə minənlər Nuhun عليه السلام gəmisindəkilər kimi xilas oldular, yerdə qalanlar isə suda boğuldular. Bu misal və dünya əhli barədə yaxşıca düşün, onda sənə hazırda baş verənlər aydın olacaq."[1]

Nicat tapmaq üçün labüd olan əməllərdən biri də: möhtərəm Peyğəmbərin ﷺ sünnəsinə tabe olmaq və onun yolunu tutub getməkdir. Bu xüsusda, uca Allah buyurur:

﴿لَّقَدْ كَانَ لَكُمْ فِي رَسُولِ ٱللَّهِ أُسْوَةٌ حَسَنَةٌ لِّمَن كَانَ يَرْجُوا۟ ٱللَّهَ وَٱلْيَوْمَ ٱلْـَٔاخِرَ وَذَكَرَ ٱللَّهَ كَثِيرًا﴾

**"Allahın Rəsulu sizlərə – Allaha və Axirət gününə ümidini bağlayanlara və Allahı çox zikr edənlərə gözəl nümunədir."[2]** O, həmçinin buyurur:

﴿فَلْيَحْذَرِ ٱلَّذِينَ يُخَالِفُونَ عَنْ أَمْرِهِۦٓ أَن تُصِيبَهُمْ فِتْنَةٌ أَوْ يُصِيبَهُمْ عَذَابٌ أَلِيمٌ﴾

**"Qoy, Peyğəmbərin əmrinə qarşı çıxanlar başlarına bir bəla gəlməsindən, yaxud özlərinə ağrılı-acılı bir əzab üz verməsindən qorxsunlar."[3]** Bu mənada olan ayələr çoxdur.

İbn əl-Qeyyim رحمه الله demişdir: "Qəsd edilən budur ki, Allahın rəsuluna ﷺ tabe olunduğu qədər, izzət, qəlb zənginliyi və zəfər əldə olunur, habelə, doğru yola yönəlmə, uğur qazanma və nicat tapmaq olur. Uca Allah Rəsulullaha ﷺ tabe olmağı dünyada və axirətdə səadətə qovuşmaq, ona müxalif olmağı isə dünyada və

---

[1] "Uddətus-Sabirin", səh: 456.

[2] əl-Əhzab surəsi, 21.

[3] əl-Nur surəsi, 63.

axirətdə bədbəxt olmaq səbəbi etmişdir. Beləcə, Rəsulullaha ﷺ tabe olanlar dorğu yola yönələr, əmin-amanlıqda olar, uğur qazanar, izzət, qəlb zənginliyi və zəfər əldə edərlər, habelə, Allah onlara həm hökmranlıq, həm Öz köməyini, həm də, dünya və axirətdə gözəl həyat bəxş edər. Rəsulullaha ﷺ müxalif olanlar isə zəlil olar, alçalar, qorxu içində olar, zəlalətə düşər və rüsvay olar, üstəlik, dünyada və axirətdə bədbəxt olarlar."[1]

Əməlləri Rəsulullahın ﷺ sünnəsinə müxalif olan kimsəyə gəlincə, onun nicat tapması qeyri-mümkündür və beləsinin əməlləri rədd edilir. Qiyamət günü insanı yalnız möhtərəm Peyğəmbərin ﷺ sünnəsinə müvafiq olan əməllər əzabdan qurtara bilər. Bu xüsusda, Peyğəmbər ﷺ demişdir: **"Kim bizim dinimizdə olmayan bir əməli edərsə, bu əməl rədd edilər."[2]**

Nicat tapmaq istəyən kəs Peyğəmbərə ﷺ tabe olmalı və onun yolunu tutub getməli, üstəlik, dinə əlavə edilmiş bidətlərdən uzaq durmalı və Peyğəmbərlərin sonuncusunun ﷺ sünnəsini dəyişdirməkdən çəkinməlidir. Odur ki, Peyğəmbər ﷺ həmişə öz ümmətinə xitab etdikdə onları bidətlərdən çəkindirər və sünnəyə sarılmağa təşviq edərdi. O, daim onlara belə deyərdi: **"Şübhəsiz ki, ən xeyirli kəlam Allahın kitabı, ən doğru yol da Muhəmmədin yoludur. İşlərin ən pisi dinə əlavə edilən yeniliklərdir. Hər bir bidət zəlalətdir."[3]**

Peyğəmbər ﷺ xəbər vermişdir ki, onun sünnəsinə tabe olan mömin Qiyamət günü onun hovuzunun yanında həşr olunacaq və bu hovuzun suyundan içəcək. Onun sünnəsini dəyişdirən və onu bidətlə əvəz edən kimsə isə hovuzun yanına buraxılmayacaq

---

[1] "Zad əl-Məad", 1/39.
[2] Bu hədisi Muslim öz "Səhih"ində (1718) rəvayət etmişdir..
[3] Bu hədisi Muslim öz "Səhih"ində (867) rəvayət etmişdir.

və oradan uzaqlaşdırılacaq. Həmin vaxt Peyğəmbərə ﷺ belə deyiləcək: "Sən bilmirsən, onlar səndən sonra dinə nələr əlavə etdilər." Onda Peyğəmbər ﷺ deyəcək: **"Məndən sonra dəyişiklik edənlər məndən uzaq olsunlar, uzaq!"**[1]

Elə isə, öz nəfsini islah etməyə çalışan və nicat tapmaq istəyən hər kəsə vacibdir ki, bidətlərdən uzaq dursun və hər bir işində əməlisaleh səhabələrin başa düşdüyü tərzdə sünnəyə tabe olsun. Abdullah ibn Amr رضي الله عنهما rəvayət edir ki, Rəsulullah ﷺ belə demişdir: **"İsrail oğulları yetmiş iki firqəyə bölünmüşlər. Mənim ümmətim yetmiş üç firqəyə bölünəcək, hamısı cəhənnəmlik olacaq. Yalnız bir firqədən başqa."** Səhabələr soruşdular: "Kimlərdir cənnətlik olanlar, ya Rəsulullah?" Rəsulullah ﷺ dedi: **"Bunlar, mənim və səhabələrimin yolu ilə gedənlərdir."**[2]

Peyğəmbərə ﷺ doğru-düzgün tabe olmaq üçün Quran və sünnəyə əsaslanan şəri elmləri öyrənmək labüddür. Hər bir müsəlman bunu etməlidir ki, Rəbbinə, dəlillərə əsaslanaraq və Peyğəmbərin ﷺ sünnəsinə müvafiq qaydada ibadət etsin.

---

[1] Bu hədisi Buxari öz "Səhih"ində (6584) rəvayət etmişdir.

[2] Bu hədisi Tirmizi "Sunən" əsərində (2641) rəvayət etmiş və Albani "Silsilə əl-Əhadis əs-Səhihə" kitabında (203 və 1492) onun "səhih" olduğunu demişdir.

## Üçüncü əməl
## Allahdan qorxmaq və
## Onun əzabından çəkinmək

Uca Allah buyurur:

﴿ وَمَن يُطِعِ ٱللَّهَ وَرَسُولَهُۥ وَيَخۡشَ ٱللَّهَ وَيَتَّقۡهِ فَأُوْلَٰٓئِكَ هُمُ ٱلۡفَآئِزُونَ ﴾

**"Allaha və Onun rəsuluna itaət edənlər, Allahdan qorxub çəkinənlər – məhz onlar uğur qazananlardır."**[1]

Uca Allah bu ayədə elə əməllər barədə xəbər verir ki, insanın yalnız bunların sayəsində xeyrə nail olması, nicat tapması və uğur qazanması mümkündür. Bu, Allaha və Onun rəsuluna ﷺ – onun sünnəsinə tabe olmaqla – itaət etməkdir. Bu haqda əvvəlki fəsildə danışmışıq.

Ayədə zikr edilən digər iki əməl isə Allahdan qorxmaq və Onun əzabından çəkinməkdir.

Allahdan qorxmağa gəlincə, bu əməl Qiyamət günü nicat tapmaq üçün əzəmətli bir əsas sayılır. Uca Allah nicat tapan möminləri belə vəsf edir:

﴿ إِنَّ ٱلَّذِينَ هُم مِّنۡ خَشۡيَةِ رَبِّهِم مُّشۡفِقُونَ ﴾

**"Həqiqətən, onlar Rəbbinin qorxusundan tir-tir əsirlər."**[2]

O, həmçinin buyurur:

﴿ إِنَّمَا ٱلۡمُؤۡمِنُونَ ٱلَّذِينَ إِذَا ذُكِرَ ٱللَّهُ وَجِلَتۡ قُلُوبُهُمۡ ﴾

**"Möminlər ancaq o kəslərdir ki, Allah anıldığı zaman onların qəlbləri qorxuya düşər."**[3]

---

[1] ən-Nur surəsi, 52.

[2] əl-Muminun surəsi, 57.

[3] əl-Ənfal surəsi, 2.

Allahdan qorxmaq insanı qəbih işləri tərk etməyə, Allaha itaət və ibadət etməyə təşviq edir. Odur ki, Həsən əl-Bəsri ﵀ demişdir: "Mömin adam yaxşılıq etməyə və tir-tir əsməyə, münafiq isə pislik etməyə və arxayın olmağa öyrəşib." Sonra o, bu ayəni oxudu: **"Həqiqətən, onlar Rəbbinin qorxusundan tir-tir əsirlər."**[1]

Allahdan qorxmaq üçün Onun gözəl adlarını və uca sifətlərini bilmək, üstəlik, Allahın kovni (kainatda olan) və şəri dəlilləri barədə düşünmək gərəkdir. İnsan Allahı nə qədər çox tanısa, bir o qədər də Ondan çox qorxacaq. Bu xüsusda, uca Allah belə buyurur:

﴿إِنَّمَا يَخْشَى ٱللَّهَ مِنْ عِبَادِهِ ٱلْعُلَمَٰٓؤُا۟﴾

**"Allahdan Öz qulları arasında ancaq alimlər qorxarlar."**[2]

Allahın əzabından qorxmağa gəlincə, bu, hər bir xeyri insana nəsib edən bir xislət və Qiyamət günü nicat tapmaq üçün əzəmətli bir səbəbdir. Bu xüsusda, uca Allah belə buyurur:

﴿وَيُنَجِّى ٱللَّهُ ٱلَّذِينَ ٱتَّقَوْا۟ بِمَفَازَتِهِمْ لَا يَمَسُّهُمُ ٱلسُّوٓءُ وَلَا هُمْ يَحْزَنُونَ﴾

**"Allah müttəqilərə uğurlarına görə nicat verəcək. Onlara pislik toxunmayacaq və onlar kədərlənməyəcəklər."**[3]

O, həmçinin buyurur:

﴿وَنَجَّيْنَا ٱلَّذِينَ ءَامَنُوا۟ وَكَانُوا۟ يَتَّقُونَ﴾

**"İman gətirib *Allahdan* qorxanları xilas etdik."**[4]

O, həmçinin buyurur:

﴿وَأَنجَيْنَا ٱلَّذِينَ ءَامَنُوا۟ وَكَانُوا۟ يَتَّقُونَ﴾

---

[1] Bu rəvayəti Təbəri öz "Təfsir"ində (17/68) nəql etmişdir.

[2] Fatir surəsi, 28.

[3] əz-Zumər surəsi, 61.

[4] Fussilət surəsi, 18.

**“İman gətirib *Allahdan* qorxanları xilas etdik.”**[1]

Təqva kəlməsi əslində “viqayə/qorunmaq” kəlməsindən əmələ gəlib. Bu kəlməyə ən gözəl tərif verən, Talq ibn Həbibdir ﵀. Ondan: “Təqva kəlməsini bizə izah edərsən?”– deyə soruşulduqda, o demişdir: “Təqva: Allahın nuru üzərində (Kitab və Sünnəyə uyğun), Allahın rəhmətini umaraq Ona itaət etmək və Allahın nuru üzərində, Allahın əzabından qorxaraq Ona asi olmaqdan çəkinməkdir.”[2] Şəkk yoxdur ki, İslam dininin fərzlərini və vaciblərini yerinə yetirən, habelə, haramlardan və günahlardan çəkinən kimsə dünyada və axirətdə uğur qazanar və nicat tapar.

Rəvayət edilir ki, Cabir ibn Abdullah ﵁ demişdir: “Nomən ibn Qovqəl Peyğəmbərin ﷺ yanına gəlib dedi: “Ya Rəsulullah! De görüm, əgər mən vacib buyurulmuş namazları qılsam, haramı haram, halalı da halal qəbul etsəm, Cənnətə daxil olarammı?” Peyğəmbər ﷺ: **“Bəli!”**– deyə cavab verdi.”[3]

Hər kim nəfsi ilə mübarizə aparıb, səbir edərək, vacib əməlləri yerinə yetirsə və haram işləri tərk etsə, Allah onu əzabdan xilas edər və onu doğru yola yönəldər. Bu xüsusda, uca Allah belə buyurur:

﴿ وَٱلَّذِينَ جَٰهَدُواْ فِينَا لَنَهۡدِيَنَّهُمۡ سُبُلَنَاۚ وَإِنَّ ٱللَّهَ لَمَعَ ٱلۡمُحۡسِنِينَ ﴾

**“Uğrumuzda cihad edənləri mütləq Öz yolumuza yönəldəcəyik. Şübhəsiz ki, Allah saleh əməl sahiblərilədir.”**[4]

Bu vacibləri yerinə yetirmək və qadağan olunanları tərk etmək Quran və sünnəyə əsaslanaraq, elmi şəkildə olmalıdır ki, insan nədən çəkindiyini bilsin. Bu xüsusda, uca Allah belə buyurur:

---

[1] ən-Nəml surəsi, 53.

[2] Bu rəvayəti Hənnad ibn Səriy “əz-Zuhd” kitabında (552) nəql etmişdir.

[3] Bu hədisi Muslim öz “Səhih”ində (15) rəvayət etmişdir.

[4] əl-Ənkəbut surəsi, 69.

﴿ وَكَذَٰلِكَ أَوْحَيْنَآ إِلَيْكَ رُوحًا مِّنْ أَمْرِنَا ۚ مَا كُنتَ تَدْرِى مَا ٱلْكِتَٰبُ وَلَا ٱلْإِيمَٰنُ وَلَٰكِن
جَعَلْنَٰهُ نُورًا نَّهْدِى بِهِۦ مَن نَّشَآءُ مِنْ عِبَادِنَا ﴾

**“Biz sənə Öz əmrimizdən olan Ruhu** (Quranı) **vəhy etdik. Sən kitab nədir, iman nədir bilmirdin. Lakin Biz onu, qullarımızdan istədiyimizi doğru yola yönəltmək üçün, bir nur etdik.”**[1]

Bəkr ibn Xuneys ﵀ demişdir: “Nədən çəkinəcəyini bilməyən adam necə müttəqi sayıla bilər?!”[2]

---

[1] əş-Şura surəsi, 52.

[2] İbn Rəcəb “Camiul-Ulum vəl-Hikəm”, 1/402.

# Dördüncü əməl
# Dili qorumaq

Nicat tapmağın və salamat qalmağın vəsilələrindən biri də dili qorumaq və onu hər bir pislikdən uzaq tutmaqdır. Rəvayət edilir ki, Uqbə ibn Amir ﷺ demişdir: “Mən Peyğəmbərdən ﷺ: “Ya Rəsulullah, nicat tapmaq üçün nə etmək lazımdır?”– deyə soruşdum.” Peyğəmbər ﷺ buyurdu: **“Dilinə sahib ol, evində Allaha itaətlə məşğul ol və etdiyin xətaya görə ağla.”[1]** Burada Peyğəmbərin ﷺ **“Dilinə sahib ol”**– sözü, dili hər bir pislikdən uzaq tutmağın nə qədər əhəmiyyətli olmasına bir işarədir. Yəni adam danışacağı söz barədə düşünməlidir. Əgər o söz xeyirlidirsə, danışsın, əks təqdirdə sussun. Bu xüsusda, Peyğəmbər ﷺ belə buyurmuşdur: **“Kim Allaha və Axirət gününə iman gətiribsə, ya xeyir danışsın, ya da sussun.”[2]**

Dilin həm insanın özünə, həm də onun dininə, yaşadığı cəmiyyətə və ətrafındakılara yetirdiyi xətəri və cinayəti çox təhlükəli və böyük olur. Elə bu səbəbdən də şəriət dili qorumaq xüsusunda insanı şiddətlə təhdid etmişdir. Bu xüsusda, Peyğəmbər ﷺ demişdir: **“Adam** (günah olub-olmadığını) **dəqiqləşdirmədiyi elə bir söz danışa bilər ki, bu söz onu məşriqlə məğrib arasında olan məsafədən daha uzaq məsafəyə qədər Cəhənnəm oduna giriftar edər.”[3]**

---

[1] Bu hədisi Tirmizi “Sunən” əsərində (2406) rəvayət etmiş və Albani “Silsilə əl-Əhadis əs-Səhihə” kitabında (890) onun “səhih” olduğunu demişdir.

[2] Bu hədisi Buxari öz “Səhih”ində (6018) və Muslim öz “Səhih”ində (47) rəvayət etmişdir.

[3] Bu hədisi Buxari öz “Səhih”ində (6477) və Muslim öz “Səhih”ində (2988) rəvayət etmişdir.

İnsanın nicat tapması xüsusilə onun dili ilə əlaqəli olduğu üçün digər bədən əzaları da ondan asılı olur. Bu xüsusda, Peyğəmbər ﷺ demişdir: **"Hər səhər Adəm övladı yuxudan oyandığı zaman onun bütün əzaları dili qınayıb deyir: "Bizə olan münasibətində Allahdan qorx! Çünki biz səndən asılıyıq. Sən düz olsan, biz də düzələrik, yox, əgər büdrəsən, biz də büdrəyərik."**[1]

Demək, dili qorumaq və onu hər bir pislikdən uzaq tutmaq dünya və axirətdəki hər bir xeyrə sahib olmaq üçün səbəb, ona əhəmiyyət verməmək, ağzına gələni danışmaq və dili qorumamaq isə həlak olmaq və ziyana uğramaq üçün səbəbdir. Odur ki, Peyğəmbər ﷺ uzun bir hədisdə Muaz ibn Cəbələ رضي الله عنه dinin əsaslarını və xeyir qapılarını bildirdikdə, hədisin axırında ona belə buyurmuşdur: **"Sənə bunların hamısını özündə cəm edən *xislət* barədə xəbər verimmi?"** Mən dedim: "Söylə, ya Rəsulullah." O, əli ilə öz dilini tutub dedi: **"Bunu, saxla!"** Mən dedim: "Ey Allahın Peyğəmbəri! Məgər biz, danışdığımız sözlərə görə hesaba çəkiləcəyik?!" Peyğəmbər ﷺ dedi: **"Anan vayına otursun, ey Muaz! Məgər, insanları üzüstə, yaxud burunları üzərində Cəhənnəmə sürükləyən, yalnız dilləri ilə əkdiklərinin bəhrəsi deyilmi?!"**[2]

Hər bir möminə vacibdir ki, ona fayda verməyəcək sözləri danışmasın. Çünki bu halda susmaq insana salamatlıq və nicat bəxş edir. Bu xüsusda rəvayət edilmiş hədisdə Peyğəmbər ﷺ demişdir: **"Kim sussa, nicat tapar."**[3]

---

[1] Bu hədisi Tirmizi "Sunən" əsərində (2407) rəvayət etmiş və Albani "Səhih əl-Cami" kitabında (344) onun "səhih" olduğunu demişdir.

[2] Bu hədisi Tirmizi "Sunən" əsərində (2616) rəvayət etmiş və Albani "Silsilə əl-Əhadis əs-Səhihə" kitabında (1122) onun "səhih" olduğunu demişdir.

[3] Bu hədisi Tirmizi "Sunən" əsərində (2501) rəvayət etmiş və Albani "Silsilə əl-Əhadis əs-Səhihə" kitabında (536) onun "səhih" olduğunu demişdir.

## Beşinci əməl

## Fitnələrdən qaçmaq

Şübhə yoxdur ki, fitnələrdən qaçmaq, onlardan uzaq durmaq və ona doğru açılan qapıları bağlamaq, insanın həm bu dünyada, həm də Qiyamət günü nicat tapmasına, üstəlik, onun dini və dünyəvi işlərində salamat qalmasına səbəbdir. Buna dəlalət edən bir çox hədislər vardır. Bunlardan birini əvvəlki fəsildə qeyd etmişik. Hədisdə rəvayət edilir ki, Uqbə ibn Amir رضي الله عنه demişdir: "Mən Peyğəmbərdən ﷺ: "Ya Rəsulullah, nicat tapmaq üçün nə etmək lazımdır?"– deyə soruşdum." Peyğəmbər ﷺ buyurdu: **"Dilinə sahib ol, evində Allaha itaətlə məşğul ol və etdiyin xətaya görə ağla."**[1]

**"Evində Allaha itaətlə məşğul ol"**, yəni adam fitnə baş qaldırdığı zaman evində qərar tutmalıdır ki, onun şərindən uzaq olsun. Fitnə zamanı insan evdə qərar tutarsa, əmin-amanlıqda olar və salamat qalar. Yox, əgər evindən çıxıb o fitnəyə bulaşarsa, o zaman canını təhlükəyə atmış olar. Odur ki, İslam şəriəti hər bir müsəlmana fitnələrdən Allaha sığınmağı buyurur. Səhih hədisdə xəbər verilir ki, Peyğəmbər ﷺ öz səhabələrinə رضي الله عنهم buyurmuşdur: **"Aşkarda və gizlində olan fitnələrdən Allaha sığının!"**[2]

Hazırki zamanda istehsal olunmuş müasir cihazlar hər bir insanın evində var. Bu cihazlar şəhvət və şübhə ilə əlaqəli cürbəcür fitnələri və şəri o evə daxil edir. İnsanların çoxu bu cihazlardan istifadə etdikdə səhlənkarlıq edib, bir çox pozğun saytlara və verlişlərə baxmaqla, artıq özlərini günaha batıraraq, pis vəziyyətə salmışlar. Demək, əvvəldə qeyd etdiyimiz hədisə uyğun olaraq

---

[1] Bu hədisi Tirmizi "Sunən" əsərində (2406) rəvayət etmiş və Albani "Silsilə əl-Əhadis əs-Səhihə" kitabında (890) onun "səhih" olduğunu demişdir.

[2] Bu hədisi Muslim öz "Səhih"ində (2867) rəvayət etmişdir.

evlərdə qərar tutmaq deyildikdə qəsd olunan odur ki, evlərimizdə Allaha ibadət etməklə məşğul olmalı, üstəlik, insanı fitnəyə bulaşdıran, onun əxlaqını, dünyasını və axirətini korlayan bu müasir cihazların düzgün olmayan istifadəsindən uzaq durmalıyıq. Əks təqdirdə isə bunun zərəri böyük olacaq.

Bir sözlə, səadətə qovuşmaq, nicat tapmaq və salamat qalmaq üçün fitnələrdən uzaq durmaq gərəkdir. Bu xüsusda, Peyğəmbər ﷺ demişdir: **"Xoşbəxt o kəsdir ki, fitnələrdən uzaq durur."**[1]

---

[1] Bu hədisi Əbu Davud "Sunən" əsərində (4263) rəvayət etmiş və Albani "Silsilə əl-Əhadis əs-Səhihə" kitabında (1975) onun "səhih" olduğunu demişdir.

## Altıncı əməl
## Çoxlu dua etmək və Allaha sığınmaq

Dua, dünya və axirətdə olan hər bir xeyrin açarıdır. Əgər insan bilirsə ki, dünya və axirətdə yalnız Allahın əzabdan xilas etdiyi kimsələrin nicat tapacaq, onda, o yalnız Allahdan nicat diləməlidir. Çünki bu yalnız Allahın əlindədir. Odur ki, nicat tapmaq üçün yalnız Allaha dua et. Bu xüsusda, uca Allah belə buyurur:

﴿ وَإِذَا سَأَلَكَ عِبَادِى عَنِّى فَإِنِّى قَرِيبٌ ۖ أُجِيبُ دَعْوَةَ ٱلدَّاعِ إِذَا دَعَانِ ۖ فَلْيَسْتَجِيبُوا۟ لِى وَلْيُؤْمِنُوا۟ بِى لَعَلَّهُمْ يَرْشُدُونَ ﴾

**"Qullarım səndən Mənim barəmdə soruşsalar, sözsüz ki, Mən *onlara* yaxınam, Mənə dua edənin duasını dua etdiyi vaxt qəbul edərəm. Gərək onlar da, Mənim çağırışımı qəbul etsinlər və Mənə iman gətirsinlər ki, doğru yola yönəlsinlər."[1]**

O, həmçinin buyurur:

﴿ وَقَالَ رَبُّكُمُ ٱدْعُونِىٓ أَسْتَجِبْ لَكُمْ ﴾

**"Rəbbiniz buyurdu: "Mənə dua edin, Mən də sizə cavab verim."[2]**

Elə isə, qoy nicat tapmaq istəyən kəs Allaha çoxlu dua edib Ondan hər bir xeyri – İslam dinində sabit qalmağı, haqq yoldan sapmamağı, islah olunmağını və başqa bu kimi, dünyada və axirətdə olan xeyirləri diləsin.

Ümumiyyətlə, duaların ən əzəmətlisi, "əl-Fatihə" surəsindəki duadır:

---

[1] əl-Bəqərə surəsi, 186.
[2] Ğafir surəsi, 60.

﴿ اهْدِنَا الصِّرَاطَ الْمُسْتَقِيمَ ﴿٦﴾ صِرَاطَ الَّذِينَ أَنْعَمْتَ عَلَيْهِمْ غَيْرِ الْمَغْضُوبِ عَلَيْهِمْ وَلَا الضَّالِّينَ ﴾

**“Bizi doğru yola yönəlt – nemət bəxş etdiyin şəxslərin yoluna, qəzəbə uğramışların və azmışların *yoluna* yox!”[1]**

Əgər Allah insanı doğru yola yönəldərsə, o insan mütləq dünyada və axirətdə nicat tapar.

Bu dua insan üçün əhəmiyyətli olduğuna və onun bu duaya olduqca böyük ehtiyacı olduğuna görə, uca Allah bu duanı fərz namazlarının rükətlərinin sayına uyğun olaraq gecə-gündüz on yeddi dəfə təkrar etməyi buyurub. Hər bir müsəlman namazda “əl-Fatihə” surəsini oxuyarkən bu əzəmətli duaya diqqət yetirməli və daima ona ehtiyacı olduğunu hiss etməlidir. Belə ki, adam doğru yola yönəlməyə müvəffəq olmaqla dünyada və axirətdə xeyir əldə edir, nicat tapır və uğur qazanır.

Dua etmək, Allaha sığınmaq və israrla Ona yalvarmaq, dünyada və axirətdə nicat tapmaq üçün ən böyük səbəblərdəndir. Elə buna görə də Peyğəmbərlər عليهم السلام nicat tapmaq üçün Allaha dua edərdilər, Allah da onların duasını qəbul edər və onları düşdükləri sıxıntıdan xilas edərdi. Məsələn:

Allahın peyğəmbəri Nuhun عليه السلام duası:

﴿ قَالَ رَبِّ إِنَّ قَوْمِي كَذَّبُونِ ﴿١١٧﴾ فَافْتَحْ بَيْنِي وَبَيْنَهُمْ فَتْحًا وَنَجِّنِي وَمَن مَّعِيَ مِنَ الْمُؤْمِنِينَ
﴿١١٨﴾ فَأَنجَيْنَاهُ وَمَن مَّعَهُ فِي الْفُلْكِ الْمَشْحُونِ ﴾

**“O dedi: “Ey Rəbbim! Qövmüm məni yalançı hesab etdi. Mənimlə onların arasında qəti hökm ver, məni və mənimlə birlikdə olan möminləri *əzabdan* qurtar!” Biz onu və onunla birlikdə olanları yüklü gəmidə xilas etdik.”[2]**

---

[1] əl-Fatihə surəsi, 6-7.

[2] əş-Şuəra surəsi, 117-119.

Allahın peyğəmbəri Lutun ﷵ duası:

﴿رَبِّ نَجِّنِي وَأَهْلِي مِمَّا يَعْمَلُونَ ﴿١٦٩﴾ فَنَجَّيْنَٰهُ وَأَهْلَهُۥٓ أَجْمَعِينَ﴾

**“Ey Rəbbim! Məni və ailəmi onların tutduqları işdən xilas et!” Biz onu və onun bütün ailəsini xilas etdik.”[1]**

Allahın peyğəmbəri Yunusun ﷵ duası:

﴿فَنَادَىٰ فِي ٱلظُّلُمَٰتِ أَن لَّآ إِلَٰهَ إِلَّآ أَنتَ سُبْحَٰنَكَ إِنِّي كُنتُ مِنَ ٱلظَّٰلِمِينَ ﴿٨٧﴾ فَٱسْتَجَبْنَا لَهُۥ وَنَجَّيْنَٰهُ مِنَ ٱلْغَمِّ ۚ وَكَذَٰلِكَ نُـۨجِي ٱلْمُؤْمِنِينَ﴾

**“O, zülmətlər içində yalvarıb demişdi: “Səndən başqa *ibadətə layiq olan* heç bir məbud yoxdur! Sən paksan, müqəddəssən! Mən isə, həqiqətən, zalımlardan olmuşam!” Biz onun duasını qəbul etdik və onu qəm-qüssədən qurtardıq. Biz möminləri belə xilas edirik!”[2]**

Uca Allahın Musa ﷵ və Harun ﷵ barədə belə buyurur:

﴿وَلَقَدْ مَنَنَّا عَلَىٰ مُوسَىٰ وَهَٰرُونَ ﴿١١٤﴾ وَنَجَّيْنَٰهُمَا وَقَوْمَهُمَا مِنَ ٱلْكَرْبِ ٱلْعَظِيمِ﴾

**“Biz Musa ilə Haruna da nemət bəxş etdik. Onların hər ikisini və tayfalarını böyük sıxıntıdan qurtardıq.”[3]**

Beləcə, hər kim Qurandakı ayələrə diqqət etsə, orada Peyğəmbərlərin ﷵ bir çox dualarına rast gələr, habelə, onların öz Rəbbinə yalvardıqlarını və hər bir halda öz istəklərini Ona ərz etdiklərini, Allahın da onların dualarını qəbul etdiyini və istəklərini həyata ke-

---

[1] əş-Şuəra surəsi, 169-170.

[2] əl-Ənbiya surəsi, 87-88.

[3] əs-Saffat surəsi, 114-115.

çirdiyini görə bilər. Digər insanların da aləmlərin Rəbbinə sığınması və Ona dua etməsi belədir. Allah dua edən bəndəsini naümid qoymur və Ona yalvaranın istəyini rədd etmir. Odur ki, dünyada və axirətdə nicat tapmaq istəyən kəs Allaha dua etməlidir.

İnsan hər zaman, ələlxüsus da, hər gecə düşünməlidir ki, onun nicat tapması Allahın istəyinə bağlıdır və Allah nicat bəxş etmədiyi kimsə əsla nicat tapa bilməz; elə buna görə də, o, öz Rəbbinə ümidlə və acizanə yalvarmalı, onu nicat tapıb uğur qazananların sıralarına daxil etməsini istəməlidir.

Bəra ibn Azib ﷺ rəvayət etmişdir ki, Peyğəmbər ﷺ belə buyurmuşdur: **"Yatmaq istədiyin zaman namaz üçün dəstəmaz aldığın kimi dəstəmaz al, sonra da sağ böyrün üstə uzan və de:**

(( اللَّهُمَّ أَسْلَمْتُ نَفْسِي إِلَيْكَ، وَوَجَّهْتُ وَجْهِي إِلَيْكَ، وَفَوَّضْتُ أَمْرِي إِلَيْكَ، وَأَلْجَأْتُ ظَهْرِي إِلَيْكَ، رَغْبَةً وَرَهْبَةً إِلَيْكَ، لاَ مَلْجَأَ وَلاَ مَنْجَا مِنْكَ إِلاَّ إِلَيْكَ، اللَّهُمَّ آمَنْتُ بِكِتَابِكَ الَّذِي أَنْزَلْتَ، وَبِنَبِيِّكَ الَّذِي أَرْسَلْتَ ))

**"Allahım, Sənə ümid edərək və Səndən qorxaraq, canımı Sənə təslim etdim, üzümü Sənə çevirdim, işimi Sənə həvalə etdim, kürəyimi Sənə etibar etdim. Sığınacaq və Sənin əzabından xilas olmaq üçün nicat yeri, yalnız, Sənə yönəlməkdir. Sənin nazil etdiyin Kitaba və göndərdiyin Peyğəmbərə iman gətirdim!"[1]**

**Əgər həmin gecə ölsən, fitrət üzərində[2] ölmüş sayılarsan. Qoy, bu, sözün sənin son sözün olsun."[3]**

---

[1] Allahummə, əsləmtu nəfsi ileykə, və vəccəhtu vachi ileykə, və fəvvədtu əmri ileykə, və əlcə'tu zahri ileykə, rağbətən və rahmətən ileyk. Lə məlcə və lə məncəə minkə illə ileyk. Aməntu bikitabikəl-ləzi ənzəltə və binəbiyyikəl-ləzi ərsəltə!

[2] Yəni heç bir günahı olmadan, anadan doğulmuş uşaq kimi.

[3] Bu hədisi Buxari öz "Səhih"ində (274) və Muslim öz "Səhih"ində (2710) rəvayət etmişdir. Bu, Buxarinin nəql etdiyi ləfzdir.

İbn əl-Qeyyim ﷺ demişdir: "İnsanı Öz əzabından xilas edən və ona Öz yanında sığınacaq verən Allahdır. Həmçinin, insanın Allahın əzabından Onun Özünə tərəf qaçması da belədir. Bütün bunlar Allahın tək ilah olduğunu və qədərin əzəldən yazıldığını gerçəyə çevirmək, Allahdan başqa rəbbin və xaliqin olmadığını isbat etmək üçündür. Habelə, məxluqun nə özünə, nə də başqasına xeyir və ya zərər verməyə, habelə, öldürməyə, yaxud həyat verməyə və ya yenidən diriltməyə qadir olmadığını isbat etmək üçündür. Əksinə, bu işlərin hamısı Allahın istəyinə bağlıdır və bunları Ondan başqa heç kəs edə bilməz."[1]

[1] "Şifa əl-Alil", səh: 273.

# Yeddinci əməl
## Davamlı olaraq Allaha tövbə etmək və Ondan bağışlanma diləmək

Allaha tövbə etməyin və Ondan bağışlanma diləməyin fəzilətinə dair Quran və sünnədə olduqca çox ayələr və hədislər var. Allaha tövbə etmək və Ondan bağışlanma diləmək Qiyamət günü insanın nicat tapmasına səbəb olan əməllərdəndir. Bu xüsusda, möhtərəm səhabə Əli ibn Əbu Talib ﵁ belə demişdir: "Mən təəccüb edirəm o kimsəyə ki, əlində nicat tapmağa imkan olduğu halda, həlak olur." Ondan: "Nədir o imkan?"– deyə soruşdular. O dedi: "Allahdan bağışlanma diləmək."[1]

Uqbə ibn Amir ﵁ Peyğəmbərdən ﷺ nicat tapmaq xüsusunda soruşduqda, Peyğəmbər ﷺ belə buyurmuşdur: **"Dilinə sahib ol, evində Allaha itaətlə məşğul ol və etdiyin xətaya görə ağla."**[2]

Hədisdə **"etdiyin xətaya görə ağla"** deyildikdə, Allaha tövbə etməyə və Ondan bağışlanma diləməyə işarə edilir. **"Xəta"** deyildikdə də, insanın etdiyi xətaların və günahların hamısı qəsd edilir. Belə ki, bu kəlmə tək halda olsa da, ümumi mənanı daşıyır. Burada insana tövsiyə edilir ki, Allaha tövbə etdikdə və Ondan bağışlanma dilədikdə, günahlarının və xətalarının hamısını – gizlində və aşkarda olanları, habelə, həm keçmişdə, həm də hazırkı zamanda olanları yadına salsın və bu günahların hamısına görə Allaha tövbə etsin və Ondan bağışlanma diləsin ki, nicat tapsın və böyük uğur qazansın.

---

[1] Bu rəvayəti əd-Dinuri "əl-Mucaləsətu və Cəvahirul-Elm" kitabında (4/49) nəql etmişdir.

[2] Bu hədisi Tirmizi "Sunən" əsərində (2406) rəvayət etmiş və Albani "Silsilə əl-Əhadis əs-Səhihə" kitabında (890) onun "səhih" olduğunu demişdir.

Odur ki, Peyğəmbər ﷺ səcdədə dua edib deyərdi:

(( اللَّهُمَّ اغْفِرْ لِي ذَنْبِي كُلَّهُ، دِقَّهُ وَجِلَّهُ، وَأَوَّلَهُ وَآخِرَهُ، وَعَلَانِيَتَهُ وَسِرَّهُ ))

**“Allahım, günahlarımın hamısını – kiçiyini və böyüyünü, əvvəlincisini və axırıncısını, aşkarını və gizlisini mənə bağışla![1]**

Əgər insan günahların hamısından çəkinib o günahlara görə peşman olsa, bir daha o günahları etməyəcəyinə niyyət etsə və o günahlara görə Allahdan çoxlu bağışlanma diləsə, Allah ona dünyada və axirətdə nicat bəxş edər. Bu xüsusda, uca Allah belə buyurur:

﴿ وَمَا كَانَ ٱللَّهُ لِيُعَذِّبَهُمْ وَأَنتَ فِيهِمْ ۚ وَمَا كَانَ ٱللَّهُ مُعَذِّبَهُمْ وَهُمْ يَسْتَغْفِرُونَ ﴾

**“Sən onların arasında olduğun müddətcə Allah onlara əzab verməyəcək. Bağışlanmalarını dilədikləri zaman da Allah onlara əzab verən deyildir.”[2]** Onların Allaha tövbə etməsi və Ondan bağışlanma diləməsi, nicat tapmaları və əzabdan xilas olmaları üçün səbəb olmuşdur.

Hədislərin birində Peyğəmbər ﷺ demişdir: **“Əməl dəftərinə çoxlu istiğfar yazılmış kimsənin xoş halına!”[3]**

Odur ki, Peyğəmbər ﷺ gecə-gündüz çoxlu-çoxlu Allaha tövbə edər və Ondan bağışlanma diləyərdi. Rəvayət edilir ki, Əbu Hureyra رضي الله عنه demişdir: “Mən Rəsulullahın ﷺ belə dediyini eşitmişəm: **“Allaha and olsun ki, mən hər gün yetmiş dəfədən çox Allahdan bağışlanma diləyir və Ona tövbə edirəm!”[4]**

---

[1] Səhih Muslim, 483.

[2] əl-Ənfal, 33.

[3] Bu hədisi İbn Macə “Sunən” əsərində (3818) rəvayət etmiş və Albani “Səhih əl-Cami” kitabında (3930) onun “səhih” olduğunu demişdir.

[4] Bu hədisi Buxari öz “Səhih”ində (6307) rəvayət etmişdir.

İbn Ömər ﵄ demişdir: “Biz Peyğəmbərlə ﷺ bir məclisdə olanda onun yüz dəfə:

(( رَبِّ اغْفِرْ لِي، وَتُبْ عَلَيَّ، إِنَّكَ أَنْتَ التَّوَّابُ الرَّحِيمُ ))

**“Ey Rəbbim, məni bağışla və tövbəmi qəbul et. Həqiqətən də, Sən tövbələri qəbul edənsən, Rəhmlisən!”**– dediyini sayardıq.”[1]

[1] Bu hədisi Əbu Davud “Sunən” əsərində (1516) və Tirmizi “Sunən” əsərində (3434) rəvayət etmiş və Albani “Silsilə əl-Əhadis əs-Səhihə” kitabında (556) onun “səhih” olduğunu demişdir.

# Səkkizinci əməl
# Özünü bəyənməkdən və lovğalanmaqdan çəkinmək

Nicat tapmaq istəyən adam, etdiyi yaxşı əməllərə görə özündən razı qalmamalı, öz əməlinə və itaətinə görə lovğalanmamalı, əksinə, olduqca ciddi bir şəkildə bunlardan çəkinməlidir. Belə ki, bundan çəkinmək onun nicat tapması üçün səbəbdir. Buna səhlənkar yanaşıb özünü bəyənən və lovğalanan adam isə, əlbəttə ki, həlak olar.

İnsanlardan bəzisi saleh əməlləri olduğu və Allaha hər növ itaət etdiyi halda, lovğalıq edir, özünü bəyənir və öz əməllərinə güvənir, beləliklə də, həlak olur və əməllərinin hamısını puç edir.

Hər bir insan özünün naqis əməlləri olduğunu bilməlidir. Bilməlidir ki, nə qədər çox yaxşı əməli olsa belə, yenə də Allahın ona bəxş etdiyi nemətlərin şükrünü ödəyə bilməz. Bu xüsusda, Peyğəmbər ﷺ demişdir: **"Heç kəsin əməli onu Cənnətə daxil edə bilməz."** *Səhabələr* soruşdular: "Səni də, ya Rəsulullah?" O dedi: **"*Bəli,* məni də. Yalnız, Allahın mənə lütf və mərhəmət göstərməsi istisnadır."**[1]

Bu ümmətin ən xeyirli nəsilləri – səhabələr və onlardan sonra gələnlər (tabiinlər) özlərindən razı qalmaqdan və lovğalanmaqdan çəkinərdilər. Rəvayət edilir ki, tabiinlərin alimlərindən olmuş Abdullah ibn Əbu Muleykə رحمه الله demişdir: "Mən Peyğəmbərin ﷺ otuz səhabəsini görmüşəm. Onların hamısı münafiq olmaqdan qorxurdular."[2]

Əgər bu ümmətin siddiqi və peyğəmbərlərdən عليهم السلام sonra insanların ən xeyirlisi sayılan Əbu Bəkr رضي الله عنه, Rəsulullaha ﷺ: "Mənə elə

---

[1] Bu hədisi Buxari öz "Səhih"ində (6573) və Muslim öz "Səhih"ində (2816) rəvayət etmişdir. Bu, Buxarinin nəql etdiyi mətndir.

[2] Bu hədisi Buxari öz "Səhih"ində (48) "muəlləq" isnadla rəvayət etmişdir.

bir dua öyrət ki, namazda onunla Allaha dua edim"– deyəndə, Peyğəmbər ﷺ ona:

(( اللَّهُمَّ إِنِّي ظَلَمْتُ نَفْسِي ظُلْمًا كَثِيرًا، وَلاَ يَغْفِرُ الذُّنُوبَ إِلاَّ أَنْتَ، فَاغْفِرْ لِي مَغْفِرَةً مِنْ عِنْدِكَ وَارْحَمْنِي، إِنَّكَ أَنْتَ الْغَفُورُ الرَّحِيمُ ))

**"Allahım, Mən özümə çoxlu zülm etmişəm. Günahları yalnız Sən bağışlayırsan. Özün günahımdan keçməklə məni bağışla və mənə rəhm et. Həqiqətən, Sən Bağışlayansan, Rəhmlisən![1]"[2]** deyə buyurmuşdursa, onda, bəs fəziləti bu səhabədən aşağı olan kimsələr necə dua etməlidirlər?!

Şeyxulislam İbn Teymiyyə ﵀ demişdir: "Heç kəs özünün Allaha tövbə etməyə və Ondan bağışlanma diləməyə ehtiyacı olmadığını güman etməməlidir. Əksinə, hər kəs daim buna möhtacdır."[3]

Xülasə budur ki, adam gözəl və saleh əməlləri yerinə yetirməyə müvəffəq edildikdə, öz əməllərinə güvənməməli, lovğalanmamalı və bu əməllərə görə özündən razı olmamalıdır. Əksinə, əməllərinin qəbul olub-olmadığına görə əndişə etməlidir. Bu xüsusda, uca Allah belə buyurur:

﴿ وَٱلَّذِينَ يُؤْتُونَ مَآ ءَاتَواْ وَّقُلُوبُهُمْ وَجِلَةٌ أَنَّهُمْ إِلَىٰ رَبِّهِمْ رَٰجِعُونَ ﴾

**"Rəbbinin hüzuruna qayıdacaqlar deyə yerinə yetirməli olduqları əməlləri qəlbləri qorxa-qorxa yerinə yetirənlər."[4]**

---

[1] Allahummə inni zaləmtu nəfsii zulmən kəsiran, və lə yəğfiruz-zunubə illə əntə, fəğfir li məğfirətən min indikə vərhəmni, innəkə əntəl-ğafurur-rahim.

[2] Bu hədisi Buxari öz "Səhih"ində (834) və Muslim öz "Səhih"ində (2705) rəvayət etmişdir. Bu, Buxarinin nəql etdiyi mətndir.

[3] "əl-Furqan beynə övliya ər-Rəhman və övliya əş-şeytan", səh: 131.

[4] əl-Muminun surəsi, 60.

Möminlərin anası Aişə ﵂ Peyğəmbərdən ﷺ: “Bunlar şərab içən və oğurluq edən kimsələrdirmi?”– deyə bu ayənin mənası barədə soruşduqda, Peyğəmbər ﷺ dedi: **“Xeyr, ey Siddiqin qızı! Bunlar o kəslərdir ki, oruc tutur, namaz qılır və sədəqə verir, lakin əməllərinin qəbul olmayacağından qorxurlar.”**[1]

---

[1] Bu hədisi Tirmizi “Sunən” əsərində (3175) rəvayət etmiş və Albani “Silsilə əl-Əhadis əs-Səhihə” kitabında (162) onun “səhih” olduğunu demişdir.

# Doqquzuncu əməl
## Haqq-hesaba çəkilməni və Allahın hüzurunda durmanı xatırlamaq

Məxluqatın haqq-hesaba çəkilməsi və etdikləri əməllərin əvəzini alması üçün aləmlərin Rəbbinin hüzurunda duracağı o dəhşətli günü xatırlamalıyıq. O gün heç kəs heç kəsi nə əzabdan qurtara bilər, nə də ona fayda və ya zərər verə bilər. Bu xüsusda, uca Allah belə buyurur:

﴿وَمَآ أَدۡرَىٰكَ مَا يَوۡمُ ٱلدِّينِ ١٧ ثُمَّ مَآ أَدۡرَىٰكَ مَا يَوۡمُ ٱلدِّينِ ١٨ يَوۡمَ لَا تَمۡلِكُ نَفۡسٞ لِّنَفۡسٖ شَيۡـٔٗاۖ وَٱلۡأَمۡرُ يَوۡمَئِذٖ لِّلَّهِ﴾

**“Sən haradan biləydin ki, Din günü nədir? Həqiqətən, sən haradan biləydin ki, Din günü nədir? O gün heç kəs heç kəsə fayda verə bilməz. O gün hökm yalnız Allaha məxsus olacaq!”[1]**

Mömin adam Qiyamət gününü, o gün baş verəcək hadisələri və dəhşətləri xatırladıqda, bu onun qəlbində qorxu yaradar və onu öz axirəti üçün hazırlıq görməyə təhrik edər, beləliklə də, o, nicat tapmaq və uğur qazanmaq üçün səbəb olan əməllərə sarılar.

Uca Allah Quranda xəbər verir ki, axirətdə nicat tapacaq kimsələr xüsusilə vurğulayacaqlar ki, dünyada ikən haqq-hesaba çəkiləcəklərinə və əməllərinin əvəzini alacaqlarına yəqinliklə inanmaları, onların uğur qazanmasına və nicat tapmasına səbəb oldu. Bu xüsusda, uca Allah belə buyurur:

﴿فَأَمَّا مَنۡ أُوتِيَ كِتَٰبَهُۥ بِيَمِينِهِۦ فَيَقُولُ هَآؤُمُ ٱقۡرَءُواْ كِتَٰبِيَهۡ ١٩ إِنِّي ظَنَنتُ أَنِّي مُلَٰقٍ حِسَابِيَهۡ﴾

[1] əl-İnfitar surəsi, 17-19.

**“Kitabı sağ əlinə verilən kimsə deyəcək: “Budur, oxuyun kitabımı! Mən bilirdim ki, etdiklərimin hesabına qovuşacağam.”[1]**

O, həmçinin buyurur:

﴿ وَأَقۡبَلَ بَعۡضُهُمۡ عَلَىٰ بَعۡضٖ يَتَسَآءَلُونَ ٢٥ قَالُوٓاْ إِنَّا كُنَّا قَبۡلُ فِيٓ أَهۡلِنَا مُشۡفِقِينَ ٢٦ فَمَنَّ ٱللَّهُ عَلَيۡنَا وَوَقَىٰنَا عَذَابَ ٱلسَّمُومِ ٢٧ إِنَّا كُنَّا مِن قَبۡلُ نَدۡعُوهُۖ إِنَّهُۥ هُوَ ٱلۡبَرُّ ٱلرَّحِيمُ ﴾

**“Onlar bir-birinə üz tutub soruşacaqlar. Onlar deyəcəklər: “Biz əvvəllər ailəmiz içində olarkən *Allahdan* qorxurduq. Allah da bizə mərhəmət göstərdi və bizi qızmar yel əzabından qorudu. Biz əvvəllər Ona dua edirdik. Həqiqətən, O, yaxşılıq edəndir, Rəhmlidir!”[2]**

Kim Allahın hüzurunda duracağını və Allahın ondan əməlləri barədə soruşacağını bilirsə, həmin gün üçün hazırlıq görməli və veriləcək suallara cavab hazırlamalı və çalışmalıdır ki, hazırladığı cavablar doğru olsun.

Rəvayət edilir ki,[3] İbrahim ibn Bəşşar ﷺ demişdir: “Mən İbrahim ibn Ədhəmin ﷺ belə dediyini eşitmişəm: “Sən kimin hüzuruna gedəcəyini yaxşı-yaxşı düşün, ömrünün keçib-gedən günləri barədə fikirləş, bax, gör, ona əminsənmi və Rəbbinin əzabından xilas olacacağına ümid edirsənmi?! Əgər bu haldasansa, demək, sən öz qəlbini əzabdan xilas olmağın yolunu tapmaq, habelə, buna səhlənkar yanaşıb əzabdan qurtulacaqlarından əmin olan və arxayın düşən kimsələrdən uzaq olmaq üçün məşğul etmisən. O səhlənkar kəslər ki, öz nəfslərinin istəklərinə uymuş, nəfsləri də onları həlak olacaqları yola sürükləmişdir. Əlbəttə, onlar tezliklə

---

[1] əl-Haqqə surəsi, 19-20.

[2] ət-Tur surəsi, 25-28.

[3] “Hilyətul-Övliya”, 8/18.

haqsız olduqlarını biləcək, heyfsilənəcək və peşman olacaqlar: **“Zalımlar isə qayıdacaqları yeri mütləq biləcəklər.”**[1]

Rəvayət edilir ki, Muallə ibn Ziyad demişdir: “Muğira ibn Muxadiş Həsən əl-Bəsridən soruşdu: “Ey Əbu Səid, burda bizimlə söhbət edən bəzi insanlar vardır ki, onlar danışanda qəlbimiz az qalır, yerindən qopub havaya uçsun. De görək, onlarla bir məclisdə oturmağımız məsləhətdirmi?” Həsən əl-Bəsri dedi: “Ey şeyx, vallahi, səni *Allahın əzabı ilə* qorxudan və sənin əmin-amanlığa qovuşmağına səbəbkar olan insanlarla dostluq etməyin, sənin üçün, səndə arxayınlıq yaradıb səni həlaka sürükləyən insanlarla dostuluq etməkdən daha xeyirlidir.”[2]

---

[1] əş-Şuəra surəsi, 227.

[2] Bu rəvayəti İbn əl-Mubarək “əz-Zuhd” kitabında (303) nəql etmişdir.

## Onuncu əməl

## Yaxşı əməlləri əmr etmək və pis işlərdən çəkindirmək

İnsanlara yaxşı əməlləri əmr etmək və onları pis işlərdən çəkindirmək İslam dininin əzəmətli şüarlarından, dəyərli əməllərindən və ümmətin nicat tapmasına səbəb olan, hətta, onların nicat tapması üçün labüd olan ən əzəmətli əməllərdən biridir.

Bu əməl sayəsində pis əməllərin sayı azalır, yaxşı əməllərin sayı artır, *hər yeri* bərəkət bürüyür və yer üzünə Allahın rəhməti nazil olur. Bu əməlin insanların və cəmiyyətin islah olunmasına elə böyük təsiri var ki, bunu yalnız göylərin və yerin Rəbbi bilir. Bu şüarı yerinə yetirmək və onun əhəmiyyətini bəyan etmək xüsusunda çoxlu sayda ayə və hədislər vardır. Bu xüsusda, uca Allah buyurur:

﴿كُنتُمْ خَيْرَ أُمَّةٍ أُخْرِجَتْ لِلنَّاسِ تَأْمُرُونَ بِالْمَعْرُوفِ وَتَنْهَوْنَ عَنِ الْمُنكَرِ﴾

**“Siz insanlar üçün üzə çıxarılmış ən xeyirli ümmətsiniz; *onlara* yaxşı işlər görməyi əmr edib, pis əməlləri qadağan edirsiniz.”**[1]

O, həmçinin buyurur:

﴿وَلْتَكُن مِّنكُمْ أُمَّةٌ يَدْعُونَ إِلَى الْخَيْرِ وَيَأْمُرُونَ بِالْمَعْرُوفِ وَيَنْهَوْنَ عَنِ الْمُنكَرِ ۚ
وَأُولَٰئِكَ هُمُ الْمُفْلِحُونَ﴾

[1] Ali-İmran surəsi, 110.

**"Qoy içinizdən xeyrə çağıran, yaxşı işləri əmr edib, pis əməlləri qadağan edən bir camaat olsun. Məhz onlar nicat tapanlardır."[1]**

O, həmçinin buyurur:

﴿ وَٱلْمُؤْمِنُونَ وَٱلْمُؤْمِنَٰتُ بَعْضُهُمْ أَوْلِيَآءُ بَعْضٍ ۚ يَأْمُرُونَ بِٱلْمَعْرُوفِ وَيَنْهَوْنَ عَنِ ٱلْمُنكَرِ ﴾

**"Mömin kişilərlə mömin qadınlar bir-birinin dostlarıdır. Onlar *insanlara* yaxşı işlər görməyi buyurur, pis əməlləri qadağan edirlər,..."[2]**

O, həmçinin buyurur:

﴿ ٱلَّذِينَ إِن مَّكَّنَّٰهُمْ فِى ٱلْأَرْضِ أَقَامُوا۟ ٱلصَّلَوٰةَ وَءَاتَوُا۟ ٱلزَّكَوٰةَ وَأَمَرُوا۟ بِٱلْمَعْرُوفِ وَنَهَوْا۟ عَنِ ٱلْمُنكَرِ ۗ وَلِلَّهِ عَٰقِبَةُ ٱلْأُمُورِ ﴾

**"Əgər onlara yer üzündə hökmranlıq versək, onlar namaz qılar, zəkat verər, yaxşı işlər görməyi əmr edib, pis işlər görməyi qadağan edərlər. Bütün işlərin aqibəti Allaha aiddir."[3]**

Yaxşı əməlləri əmr etməyin və pis əməllərdən çəkindirməyin, nicat tapmaq və salamat qalmaq üçün səbəb olması barədə uca Allah belə buyurur:

﴿ فَلَمَّا نَسُوا۟ مَا ذُكِّرُوا۟ بِهِۦٓ أَنجَيْنَا ٱلَّذِينَ يَنْهَوْنَ عَنِ ٱلسُّوٓءِ وَأَخَذْنَا ٱلَّذِينَ ظَلَمُوا۟ بِعَذَابٍۭ بَـِٔيسٍۭ بِمَا كَانُوا۟ يَفْسُقُونَ ﴾

---

[1] Ali-İmran surəsi, 104.
[2] ət-Tovbə surəsi, 71.
[3] əl-Həcc surəsi, 41.

**“Onlar özlərinə edilmiş xəbərdarlığı unutduqları zaman Biz pis əməlləri qadağan edən kimsələri xilas etdik, haqsızlıq edənləri isə etdikləri günahlara görə dəhşətli bir əzabla yaxaladıq.”**[1]

Nomən ibn Bəşir رضي الله عنه rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: **“Allahın qoyduğu hüdudları qoruyanların və onu aşanların halı, gəmiyə minmək üçün püşk atdıqdan sonra bir qismi gəminin göyərtəsinə, digərləri də gəminin aşağı mərtəbəsinə yerləşmiş bir toplumun halına bənzəyir.** *Onlar dənizdə olduqları zaman* **aşağıdakılar su istədikdə gəminin göyərtəsinə qalxıb yuxarıdakıların arasından keçir** *və onları narahat edirlər.* **Onda aşağıdakılar deyirlər: “Gəlin, gəmini deşib buradan su götürək və yuxarıdakılara əziyyət verməyək.” Əgər yuxarıdakılar onların özbaşınalıq etməsinə göz yumsalar,** *gəmi batacaq və* **hamısı həlak olacaq; yox, əgər bunun qarşısını alsalar, onda həm özləri, həm də aşağıdakılar xilas olacaqlar.”**[2]

İnsanlar arasında bu şüarı həyata keçirən kimsələr olduğu müddətcə o insanlar xeyir içində olarlar. Bunu tərk etdikləri təqdirdə isə, böyük təhlükə və pis aqibətlə üzləşərlər. Bu xüsusda, Peyğəmbər ﷺ belə demişdir: **“İnsanlar münkər** (pis bir əməl) **gördükdə onu aradan qaldırmasalar, Allah onların hamısını birdən cəzalandırar.”**[3]

Elə isə, hər bir müsəlman bu əzəmətli şüarı yerinə yetirməyə həris olmalı, bu işdə Allaha sadiq olmalı və bu işdə doğru yol üzərində olan haqq əhlinin yolunu tutub getməlidir.

---

[1] əl-Əraf surəsi, 165.

[2] Bu hədisi Buxari öz “Səhih”ində (2493) rəvayət etmişdir.

[3] Bu hədisi İmam Əhməd “Musnəd” əsərində (1) rəvayət etmiş və Albani “Silsilə əl-Əhadis əs-Səhihə” kitabında (1671) onun “səhih” olduğunu demişdir.

Odur ki, möhtərəm səhabə Cundəb ibn Abdullah ﷺ Bəsrə əhlinin alimlərindən bir dəstə xeyirsevən insanın, öz söhbətlərində insanlara yaxşı işlər görməyi və pis əməllərdən çəkinməyi xatırlatdıqlarını gördükdə demişdir: "Bu gün gördüyüm insanlar, – əgər doğru danışırlarsa, – nicat tapmağa daha çox layiqdirlər."[1]

Hər bir müsəlman bu məsələdə zəlalət əhlinin və batil yolda olan kimsələrin üslublarından çəkinməlidir. Bu sarsılmaz şüarın (yaxşı əməlləri əmr etməyin və pis işlərdən çəkindirməyin) üsullarına, onun mübarək ədəblərinə, habelə, Allahın kitabından və Onun peyğəmbərinin ﷺ sünnəsindən götürlmüş mötəbər qaydalarına riayət etmək labüddür.

Əgər bu şüar həmin qaydalara və üsullara əsasən həyata keçirilərsə, insanlar islah olunar, xeyir əldə edilər və uğur qazanılar.

Yox, əgər bu şüar şəriət qaydalarına və onun məlum üsullarına müxalif olan yönə yönəldilərsə, onda bu, müsəlman cəmiyyətinə zərər verəcək bir vasitəyə çevrilər, beləliklə də, əmin-amanlığa xələl gələr, hərc-mərclik baş alıb gedər, insanların malları qəsb edilər, qanları axıdılar, namusları tapdalanar və başqa növ fəsadlar və zərərlər meydana gələr və elə, bu səbəbdən də, şəriət qaydalarını və onunu üsullarını bilməyən və bundan anlayışı olmayan adam həm özünə, həm də xalqına qarşı cinayət törədə bilər.

Rəvayət edilir ki, bir toplum Huzeyfə ibn əl-Yəməndən ﷺ: "Məgər, biz, insanlara yaxşı işlər görməyi əmr edir və onları pis işlərdən çəkindirmirikmi?"– deyə soruşduqda, o, belə cavab

---

[1] Bu rəvayət İbn Əbu Asim "əl-Əhad vəl-Məsani" kitabında (2314) nəql etmişdir.

vermişdir: "Bu, yaxşı əməldir. Lakin öz rəhbərinə qarşı qılınc qaldırmaq sünnəyə müvafiq deyil."[1]

Şeyxulislam İbn Teymiyyə ﷺ rəvayət edir ki, bir gün bir nəfər Əbu Hənifəyə ﷺ sual verib dedi: "Bir adam insanlara yaxşı işlər görməyi əmr edir və onları pis əməllərdən çəkindirir. Bir müddət sonra bir dəstə adam onun başına toplanır və onlar camaata qarşı üsyan edir. Onun bu əməli doğrudurmu?" Əbu Hənifə ﷺ: "Xeyr!"– deyə cavab verdi. Adam soruşdu: "Məgər, Allah və Onun rəsulu ﷺ hər bir müsəlmana insanlara yaxşı işlər görməyi əmr edib və onları pis əməllərdən çəkinməyi – yəni bu vacib əməli –yerinə yetirməyi əmr etməyibmi?" Əbu Hənifə ﷺ dedi: "Elədir, lakin onlar qan tökməklə və haramı halal saymaqla, islah etməkdən daha çox fəsad törədirlər."[2]

---

[1] Bu rəvayəti İbn Əbu Şeybə "əl-Musannəf" əsərində (37613) nəql etmişdir.
[2] "əl-Fətavə əl-Həməviyyə", səh: 321.

# Son söz

Rəvayət edilir ki, Süfyan əs-Sövrinin ﷺ dostlarından biri ona "Mənə yığcam bir nəsihət et!"– deyə məktub yazmış, o da ona belə cavab vermişdir: "Qardaşım, Allah bizi də, səni də bütün pisliklərdən qorusun! Dünyanın qəm-qüssəsi qurtarmaz, sevinci davamlı olmaz, barəsindəki fikirlərin də sonu olmaz. Sən yaxşı işlər gör ki, nicat tapasan. Laqeydlik göstərmə ki, axırda məhv olmayasan. Vəssəlam."[1]

Həmçinin, Muhəmməd ibn Səmmak ﷺ demişdir: "Ağıllı insanın məqsədi nicat tapmaq və günahlardan qaçmaqdır. Axmaq adamın məqsədi isə əylənmək və şənlənməkdir."[2]

Allahdan istəyimiz budur ki, Cənnəti bəxş edib uğur qazandırmaq və Cəhənnəm əzabından xilas etməklə, bizə Öz nemətini bəxş etsin, habelə, bizim qəlbimizi Öz dini üzərində sabit saxlasın. Şübhəsiz ki, O, bizə yaxındır və duaları qəbul edəndir. Allahın qulu və rəsulu peyğəmbərimiz Muhəmmədə, onun əhli-beytinə və cəmi səhabələrinə Allahın salavatı və salamı olsun!

---

[1] Bu rəvayət Əbu Nueym "Hilyətul-Övliya" kitabında, 7/5 nəql etmişdir.

[2] Əvvəlki mənbə, 8/204.

# Mündəricat

Müqəddimə .......... 3
**Birinci əməl:** Allahın tək İlah olduğunu qəbul etmək və dini ixlasla Ona yönəltmək .......... 7
**İkinci əməl:** Peyğəmbərin ﷺ sünnəsinə tabe olmaq .......... 14
**Üçüncü əməl:** Allahdan qorxmaq və Onun əzabından çəkinmək .......... 18
**Dördüncü əməl:** Dili qorumaq .......... 22
**Beşinci əməl:** Fitnələrdən qaçmaq .......... 24
**Altıncı əməl:** Çoxlu dua etmək və Allaha sığınmaq .......... 26
**Yeddinci əməl:** Davamlı olaraq Allaha tövbə etmək və Ondan bağışlanma diləmək .......... 31
**Səkkizinci əməl:** Özünü bəyənməkdən və lovğalanmaqdan çəkinmək .......... 34
**Doqquzuncu əməl:** Haqq-hesaba çəkilməni və Allahın hüzurunda durmanı xatırlamaq .......... 37
**Onuncu əməl:** Yaxşı əməlləri əmr etmək və pis işlərdən çəkindirmək .......... 40
Son söz .......... 45